BÜLTEN
Güney Azərbaycan Sivil Düşüncə Platformu

Birinci Nömrə, Səhifə 1
15 Mart 2026

Güney Azərbaycanın gücü və siyasi müadilatda rolu

Türklərin Təmkinli Duruşu: Kaostan Uzaq, Hazırlıqlı

Əlirza Quluncu

İranda baş verən son ayaqlanmalar bağlamında Türklərin, özəlliklə Güney Azərbaycanın tutumunu anlamaq üçün məsələni yalnız güncəl gəlişmələr üzərindən oxumaq yetərli deyildir. Bu tablonu çözmək üçün sosyal yapı, tarixi hafizə və siyasal rasyonallıq birlikdə ələ alınmalıdır. Güney Azərbaycan, yüksək şəhərləşmə və ekonomik inteqrasyon səviyəsi sayəsində ticarət burjuvazisi, kiçik və orta ölçəkli sənaye, güclü əsnaf ağları və eyitimli orta sınıfa dayanan, dövlət sisteminə görəcə inteqrə bir toplumsal yapı sərgiləyir. Bu yapı ani qırılmalardan çox, ölçülü və planlı hərəkətlərə yatqındır.

Buna qarşılıq güclü Türk kimliyi və tarixi dövlət denəyimi, Azərbaycanın mərkəzi ulus anlatısına məsafəli və təmkinli bir bilinc gəlişdirməsinə yol açmışdır. İntəqrasyon ilə məsafə arasındakı bu ikili karakter, siyasi davranışın təməlini oluşdurur.

Təbrizin İran Məşrutiyyət Devrimi sürəcindəki mərkəzi rolu təsadüf dəyildir. 1945-46-dakı Azərbaycan Milli Hökuməti dənəyimi də bu hafizəni dərinləşdirmişdir. Bu iki tarixi dənəyim, bölgədə kontrolsuz siyasi yönəlimlərdən ziyadə ölçülü və stratejik refleksin yerləşməsinə qatqı sağlamışdır.

Son yüzildə Aryan təməlli ulus inşası çərçəvəsində yaşanan səmbolik və qurumsal dışlanmağa dirənən Türk toplumu dövlətdən bütünüylə qopmamış, sistem içində varlığını sürdürərək kimliğini də muhafizə etmişdir. Türkiyə və Azərbaycan Cumhuriyəti ilə sürən duyğusal və kültürəl bağlar, bu tarixi sürəkliliyi gücləndirən bir aidiyyət çərçəvəsi sunmaqdadır.

Bu gün ortaya çıxan tablonu anlamaq üçün bu arxa planı gözdən qaçırmamaq gərəkir. Günəy Azərbaycanda bir dəngə siyasəti oluşmuşdur. Radikal ayrışma yərinə təmkinli məsafə tərcih edilir. Açıq çatışma yərinə stratejik pozisyon qorunur. Çünkü şiddət və kontrolsuz küçə dalğaları şəhər dokusunu yıpradar. Ölüm, qorxu və güvənsizlik şəhərləri zəyiflədər və bölgənin siyasi bazarlıq gücünü düşürər.

Urmiyə və Təbriz kimi şəhərlərdə siyasal qatılım çox zaman rasyonal bir maliyət–fayda hesabıyla dəyərləndirilər. Yerəl dinamiklərdən doğan hərəkətlərlə dış mərkəzli dalğalar arasında bilincli bir ayrım yapılar. Öz kontrolu dışında və fərqli mərkəzlərdən qaynaqlanan, özəlliklə şiddət içərən protstolara təmkinli yaxlaşılar. Şəhərlərin huzurunu və güvənliyini qoruma öncəliyi önə çıxar.

Ancaq əsas bəlirləyici olan İranın gələcəyinə dair olası senaryolardır. Rəjimin sərtləşməsi, kontrollu reform, bölgəsəl parçalanma ya da dış müdaxilə kimi fərqli ehtimallar söz qonusudur. Hər bir senaryoda Güney Azərbaycan üçün təməl məsələ kütləsəl duyğusal reaksiyon deyil. Əsas hədəf toplumsal doku və şəhər mərkəzli istiqrarı qoruyaraq siyasi kapasitəsini muhafizə etməkdir.

Bu nədənlə Türklərin təmkinli yaxlaşımı edilgənlik deyildir. Tərsinə, şəhərlərini və toplumsal istiqrarını qoruma iradəsidir. Başqa mərkəzlərdən yönləndirilən, sonucu bəlirsiz və yüksək maliyətli dalğalara qapılmaq, Türklərin tarixi birikimini zəyiflədər. Kaosa sürüklənməyən və qurumsal kapasitəsini muhafizə edən bir bölgə, bəlirsizlik dönəmlərində siyasi iradəsini daha güclü ortaya qoyabilər. Bu tutum, olası bütün senaryolara qarşı gəlişdirilmiş stratejik bir hazırlıqdır.

Türk toplumu, özəlliklə Güney Azərbaycanda bu təmkinli duruşu sürdürərkən, ölkə dışındakı aktivistlərin də dış mərkəzlərdən gələn çağrılara qapılmamaları təməl öncəlkdir. (son)

SƏN HƏR ZAMAN YETƏRLİYDİN

YOU WERE ALWAYS ENOUGH

Bülten haqqında:

- *Bülten, Güney Azərbaycanın milli məsələlərini mübahisə edir.*
- *Bülten, gündəm siyasi ictimai olaylara Güney Azərbaycan milli hərəkətinin gözü ilə baxmağa çalışır.*
- *Bültenin hər nömrəsində özəl bir başlıq müxtəlif açılardan mübahisə edilir.*
- *Bülten yazarlar heyeti terefinden idare olunur*

Türkcənin editörü: L. Cavanşir
İngiliscənin editörü: T. Bozkurt
Dizayn işləri: S. Purmusavi
Email: bulten.sdp@gmail.com

(1979) 1357-dən sonra Güney Azərbaycan Türkləri: Hakimiyyətdə görünən, haqlarda görünməyən bir gerçəklik

Dr. Lalə Cavanşir

1979-cu ildə baş verən İran İslam İnqilabı, Güney Azərbaycanlıların fəal iştirakı nəzərə alınmadan nə siyasi, nə də ictimai baxımdan tam olaraq açıqlana bilər. Pəhləvi dönəmində yaşanan siyasi və kültürəl (mədəni) basqılar, ana dilinin ümumi alandan qovulub xüsusi alana sıxışdırılması və kollektiv hafizədə toplanan ədalətsizlik duyğusu, inqilab zamanı güclü bir ümumi səfərbərlik yarada bildi. Azərbaycanlılar üçün bu sadəcə rejim dəyişikliyi deyil, eyni zamanda tarixi bir hesablaşma anlamına gəlirdi.

Ancaq inqilabın qələbəsi, Azərbaycanlıların sistem içində qalıcı və təsirli bir siyasi gücə dönüşməsinə səbəb olmadı. Daha ilk mərhələdə, yeni qurulan ideoloji dövlət modeli ilə bölgənin kimlik və siyasi gözləntiləri arasında ziddiyyət ortaya çıxdı. "Vilayət-e fəqih"in anayasa (konstitusiya) əsaslarından biri halına gətirilməsi, bir çox Azərbaycanlı dini və siyasi aktyor tərəfindən mərkəzləşmənin güclənməsi kimi dəyərləndirildi. Bununla da ümumi bir narazılıq ortaya çıxdı. Bu narazılıq Məhəmməd Kazım Şəriətmədari ətrafında şəkillənən "Xalq Müsəlman" hərəkatının timsalında özünü göstərdi. Onlar daha yerli və alternativ bir dini-siyasi baxışı təmsil edirdi. Təbrizdə yüksələn etiraz şüarları bu narazılığın açıq göstəricisi idi.

İslam İnqilabından sonra dövlətin Azərbaycanla münasibəti ikili bir strategiyaya dayandı: inteqrasiya (cəlb etmə) və nəzarət. Bir yandan Mehdi Bazərgan və Əbülhəsən Bəni Sədr kimi Azərbaycan kökənli siyasətçilərə yüksək vəzifələr verildi; digər yandan bağımsız dini və ictimai mərkəzlər təmizləndi. Qısa müddət içində sistemə cəlb edilən liberal fiqurlar da uzaqlaşdırılmağa başlandı. Bu münasibət siyasi elmində Exclusion by Inclusion ("daxil edərək kənara qoymaq") kimi tanınır. Etnik elitlər hakimiyyətin içinə alınır, amma toplumun ana dili, mədəni və siyasi istəkləri, eləcə də kollektiv (cəmiyyətsəl) haqları sistemin eşiyində saxlanılır.

Bu model xüsusilə Əli Xamenei dövründə daha da inkişaf etdirildi. Onun Azərbaycanli kimi tanitdırılması və bəzən Türkcə danişmasına baxmayaraq, türk dilində təhsil rəsmi və qurumsal səviyyədə sistemdən kənarda qaldı. Milli tələblər isə getdikcə "təhlükəsizlik məsələsi" çərçivəsində ələ alınmağa başlandı və etnik haqlar siyasi bir risk olaraq kodlandı. Beləliklə məsələ bərabər vətəndaşlıq tələbi olmaqdan çıxarılıb təhlükəsizlik diskursunun içinə həbs edildi. Seçkilər məsələsində də bənzər bir paradoks açıq şəkildə özünü göstərdi: iştirak var, amma gerçək təmsil yoxdur. Azərbaycanlı seçicilər seçkilərə fəal şəkildə qatılaraq sistemin legitimliyinə qatqı sundular; ancaq onların ana dildə təhsil, milli haqlar və yerli idarə tələbləri qərarvermə mexanizminə daxil edilmədi. Eyni məhdudiyyət reformist qanadda da görülürdü. Mir Hüseyn Musəvi kimi adlar simvolik jestlərlə Azərbaycanlı seçicilərə əl uzatmağa çalışsa da, dövlətin fars-mərkəzli ideoloji çərçivəsinin eşiyini aşa bilmədilər. Bu səbəblə həm hakimiyyət, həm də mərkəzi müxalifət Azərbaycanlıların siyasi dəstəyini arzulasa da, kollektiv haqların tanınması barədə müəyyənedici bir addım atmadı. Son illərdə Məsud Pezeşkian kimi Azərbaycan kökənli dövlət adamlarının önə çıxarılması seçkilərdə iştirakı keçici olaraq artırdı. Lakin bu vəziyyət struktur bir dəyişiklik deyil, daha çox taktiki bir manevr idi. Bu gün ortaya çıxan tablo paradokslarla doludur:

Güney Azərbaycan Türkləri hakimiyyət strukturları içində vardır və görünürlər, amma hakimiyyətin içərisini və ya məzmununu müəyyənləşdirmək imkanına sahib deyillər. 1979-dan sonra formalaşan model üç əsas xüsusiyyət daşıyır:

- ideoloji mərkəzləşmə,
- elitlərin sistemə cəlb edilməsi ilə istəklərin kənarda qalması,
- siyasi iştirakın alətə çevrilməsi.

Uzunmüddətli perspektivdə isə əsas sual budur: hüquqi və mədəni tanınma olmadan, sadəcə iştirak üzərindən istehsal edilən legitimlik nə qədər davam etdirilə bilər? Tarixi təcrübə göstərir ki, qalıcı siyasi sabitlik görünən və formal təmsildən yaranmaz. Qalıcı siyasi sabitlik bərabər haqlardan və onların dövlət qurumları tərəfindən ciddi şəkildə təmin olunmasından yaranır. (son)

Güney Azərbaycan Türkləri hakimiyyət strukturları içində vardır və görünürlər, amma hakimiyyətin içərisini və ya məzmununu müəyyənləşdirmək imkanına sahib deyillər.

1979-dan sonra formalaşan model üç əsas xüsusiyyət daşıyır:

- ***ideoloji mərkəzləşmə,***
- ***elitlərin sistemə cəlb edilməsi ilə istəklərin kənarda qalması,***
- ***siyasi iştirakın alətə çevrilməsi.***

Güney Azərbaycan'da Yayğın Olan Siyasi Şüarlar Və Onların Mahiyəti

Dr. Raheb Mohammadi Ghanbarlou

Güney Azərbaycanda yaşayan Azərbaycan Türkləri arasında siyasi şüarlar uzun illərdir kollektiv kimliyin, mədəni hüquq tələblərinin və toplumsal-siyasi narazılıqların ən görünən ifadə şəkillərindən biri sayılır. Bu şüarlar yalnız siyasi çağırış mahiyəti daşımır. Eyni zamanda toplumun tarixi yaddaşını, kimlik şüurunu və toplumsal ədalət axtarışını əks etdirən səmbolik mətinlər kimi çıxış edir. Sosioloji baxımdan onlar həm mobilizasiya vasitəsi, həm də kollektiv hislerin ifadə platforması rolunu oynayır. Ən geniş yayılmış şüarların böyük hissəsi dil və kimlik məsələləri ilə bağlıdır. Məsələn, "Türk dilində mədrəsə, olmalıdır hər kəsə" kimi şüarlar ana dilində təhsil hüququ tələbinin qısa, lakin güclü duyqusal ifadəsidir. Bu tip şüarların məzmununda mədəni bərabərlik, səmbolik tanınma və asimilasyon qorxusuna qarşı müqavimət ideyaları yer alır. Sosioloji baxımdan bu, etnik kimliyin pasiv mədəni xüsusiyyətdən aktiv siyasi tələbə çevrildiyini göstərir. Başqa önəmli şüar qrupu bölgəsəl bərabərsizlik və toplumsal ədalət qonusu ilə bağlıdır. "Azərbaycan var olsun, istəməyən kor olsun" kimi şüarlar yalnız milli qürur ifadəsi deyil, həm də mərkəzi siyasətlərə qarşı narazılığın duyqusal şəklidir. Bu şüarların məzmununda həm bölgəsəl inkişaf tələbi, həm də kolektiv birlik hissinin gücləndirilməsi məqsədi açıq şəkildə görünür. Bu tip ifadələr "biz" və "onlar" sərhədini quraraq kolektiv kimliyin sərtləşməsinə səbəb olur. Tarixi yaddaşla bağlı şüarlar da önəmli yer tutur. Məşrutə dövrü liderlərinə istinad edən şüarlar kolektiv yaddaşın siyasi məşruiyət yaratmaq əməlini nümayiş etdirir. Bu tip şüarlar keçmiş mübarizə ilə indiki siyasi tələblər arasında səmbolik körpü yaradır. Beləliklə, tarix yalnız xatirə kimi deyil, həm də siyasi qaynaq kimi iş görür. Son illərdə daha çox demokratik və hüquq yönümlü şüarların yayılması müşahidə olunur. "Azadlıq, ədalət, milli hökumət" kimi ifadələr etnik kimlik çərçivəsini aşaraq siyasi iştirak, vətəndaş hüquqları və demokrasi tələblərini ön plana çıxarır. Bu isə göstərir ki, şüarlar təkcə etnik məzmun daşımır, həm də universal siyasi dəyərlərlə əlaqələnir.

Nəticə etibarilə, Güney Azərbaycanda siyasi şüarlar çoxqatlı toplumsal məna daşıyır: onlar kimliyin qorunması, toplumsal ədalət tələbi, tarixi yaddaşın canlandırılması və siyasi mobilizasyonun əsas vasitələrindən biri kimi çıxış edir. Bu şüarlar toplumun kolektiv duyqularını qısa, səmbolik və təsirli formada ifadə edən önəmli toplumsal mətinlərdir. (son)

İlkəsəl Tutarlılıq Üzərinə

Dr. Teoman Aktan

Bugünlər bir çox kəsim və çevrə tərəfindən İranın haraya getdiyi dartışılır. Biz isə bir siyasi hərəkətin mənsubu olaraq bu suala daha doğru bir yerdən yanaşmaq üçün öncə öz qonumumuzu bəlirləməliyik. Çünkü hər bir siyasi yönəlim təkcə dış gəlişmələrlə olmur, siyasi öznənin öz ilkəsəl çərçəvəsiylə və duruşuyla əsasda bəlirlənməlidir.

Azərbaycanın köklü bir demokratik müxalifət gələnəyi və bir əsri aşan muxtariyət mücadiləsi nəticəsində oluşmuş, tarixsel sürekliliyə sahib bir siyasi çizgisi vardır; bu tarixsəl sürəc eyni zamanda güclü bir teorik zəmin, ilkəsəl bir çərçivə və sistematik bir tez birikimi də ortaya çıxarmışdır. Bu siyasi çizgi, əsasda eşit statü tələbi və kolektif varlığın tanınması ısrarı üzərinə quruludur. Ancaq son illərdə ölkədə və bölgədə yaşanan siyasal çalxantılar, artan siyasal və ideolojik səfləşmələr, Ortadoğunun gələcəyi ilə ilgili çabalar bu çizgiyi ciddi bir sınamayla qarşı-qarşıya buraxmışdır. Son dönəmdə ortaya çıxan bu hızlı gəlişmələr, siyasi çizgiyi həm ilkəsəl tutarlılığı hem də stratejik yönelimi baxımından zorlamışdır. Konjonktürel basqıların yoğunlaştığı dönemlerde alınan qərarlar, ilke ile pratik arasındaki uyumu zəyiflətmə riski taşır. Bu uyum zədələndikcə, siyasi çizginin inandırıcılığı və toplumsal məşruiyət zəmini də aşınmaya başlar. Bu nədənlə əsas məsələ, dəyişən siyasal şərtlər qarşısında ilkəsəl tutarlılığı muhafizə edərkən siyasal çizginin yönünü, netliyini və dəvamlılığını güvəncə altına alabilməkdir.



Bu çərçivədə atılacaq hər addımın, qısa sürəli taktik qazanımlardan ziyadə uzun vədəli siyasal xəttı təhkim etməyə xidmət etməsi zorunludur. Siyasal mücadilədə konjonktural avantajlar cazib görünsə də, əgər bu addımlar təməl ilkə və dəyərlərlə uyumlu bir çərçivəyə oturmursa, zamanla çizginin ideolojik bütünlüyünü zədələyəbilər. Taktik əsnəklik, normatif sabitlik ilə dəngələnmədiyində, siyasal çizgiyi ilkələr və dəyərlər ilə çəlişkili bir alanlara savurabilər, bununla birlikdə öncəlik qaymasına, söyləm parçalanmasına ve təmsil krizinə yol açaraq yönəlim bulanıqlığı ürədəbilər. Bu durum xalqın nəzdində bir məşruiyət aşınmasına nədən olaraq kolektif mobilizasyon kapasitəsi üzərində yıpradıcı etkilər doğurar. Siyasal güvən və təmsil iddiası bir kəz zədələndiyində, yenidən inşası uzun soluqlu bir sürəcə dönüşər. Dolayısıyla burada ehtiyac duyulan şey refleksif təpkilər ya da konjonktural yönəlimlər deyil; ilkə və dəyərlərə yaslanan, ideolojik tutarlılığı qoruyan və siyasal çizginin sürəkliliyini güvəncə altına alan bütünlüklü bir yenidən təhkim sürəcidir. Hamını düşündürən əsas suala qayıdacaq olsaq, bu çəkiş-bərkişli durumda İranın hansı yönə evriləcəyindən ziyadə, bizim hansı normatif ölçütlərlə və hansı siyasal (ardı 4-cü səhifədə)

“Azad olmaq üçün özünü zəncirlərdən azad etmək kifayət deyil, başqalarının azadlığına hörmət etməli və dəstəkləməlisən...”

Nelson Mandela

Güney Azərbaycanın öz idarəetmə modelini qurmasının legitimliyi və qurumsal qabiliyyəti ilə bağlı əsas sual “mümkündürmü?” deyil. Burda əsas sual, cəmiyyət olaraq təşkilatlanma və torpaq üzərində effektiv nəzarəti bərqərar etmək üçün koordinasiyalı şəkildə hərəkət etmək mümkün olacaqmı?

ilkələr təməlində hərəkət etdiyimizin bəlirləyici olacağıdır. Tutarlılıq, siyasal varlığımızın qurucu dayanağıdır. Bu səbəblə bugün önümüzdə duran təməl görəv, yalnızca bir gələcək təsavvürünü netləşdirmək deyil; o təsavvürü demokratik ilkə və dəyərlərlə bir çəlişki içində olmamasına diqqət etməkdir. Bir siyasal hərəkətin olqunluğu, kriz anlarında verdiyi refleksif təpkilər yerinə normatif çərçivəsini qoruma, söyləm ilə pratik arasında sürəklilik sağlama kapasitəsiylə ölçülər. Qısa zamanlı qazanımlar uğruna təməl iddialarını əsnədən ya da konjonktura görə söyləm dəyişdirən hərəkətlər, başlanğıcda praqmatik bir görüntü verəbilər; ancak zaman içində təmsil qabiliyətlərini və məşruiyət zəminlərini aşındırarlar. Gerçək siyasal olğunluq isə dəyişən güc dəngələrinə rəğmən ana ilkələri muhafizə edəbilmək, öz pratikini də ələşdirəl süzgecdən keçirəbilmək və taktik tərcihlər ilə tarixsəl yönəlim arasında məqul bir dəngə qurabilməkdir. Sonuc olaraq tutarlılıq, yalnızca etik bir tərcih deyil; hər hankı bir kolektif demokratik mücadilənin qurumsal hafizəsini ayaqda tutan, siyasal güvəni gücləndirən və təmsil iddiasına sürəklilik qazandıran vazkeçilməz bir zorunluluqdur. (son)

Güney Azərbaycanın Dövlətləşmə İmkanları: Jeopolitik Gerçəklik və Gələcək Ufuqları

Türkan Bozkurt

Güney Azərbaycanın geosiyasi mövqeyi İran daxilindəki digər xalqlardan fərqli olaraq daha stratejik və daha ağır vəziyyətdədir. Digər azlıq xalqlarla müqayisədə, Güney Azərbaycan tarixən dövlət quruculuğu təcrübəsi olmuş və bu gün də dövlətçilik üçün zəruri sayılan əsas şərtlərin böyük hissəsini özündə birləşdirən bir toplumdur.

Əvvəla, 1945-ci ildən qalan dövlətçilik təcrübəsi və idarəçilik nümunəsi var. Həmin hökumət sonradan mərkəzin hərbi gücü ilə yıxılsada, bu fakt onun idarəetmə potansiyelini və institusional əsaslarını inkar edən etibarlı arqument deyil. Tarixdə oxşar nümunələr var. Məsələn, İrlandiya uzun müddət işğal və müstəmləkə təzyiqləri ilə üzləşsə də, axırda müstəqilliyini əldə edə bildi.

Bu baxımdan, Güney Azərbaycanın hansı amillər hesabına dayanıqlı bir idarəetmə modelinə çevrilə biləcəyinə qısa nəzər salaq. Şübhəsiz ki, fərqli dilimiz, tariximiz və mədəniyyətimiz var. Ancaq dövlətçilik yalnız mədəni kimliklə məhdudlaşmır. Bir çox xalqın dili və tarixi olsa da, bu, avtomatik şəkildə dövlət qurmaq qabiliyyəti demək deyil. Buna görə məsələni daha çox siyasi və qurumsal meyarlar üzərindən dəyərləndirmək lazımdır. Daimi əhali, müəyyən ərazi, qaynaqlar üzərində nəzarət, effektiv qurumlar, daxili və xarici tanınma imkanları, suverenlik və beynəlxalq münasibətlərə daxil olmaq bacarığı kimi göstəriciləri var.

Güney Azərbaycan ərazisində sabit və daimi bir əhali yaşayır. Daha da əhəmiyyətlisi, bu əhali o torpaqların yerli sakinləridir, əsrlər boyu həmin coğrafiyada yaşamış bir toplumdur. Güney Azərbaycanın müəyyən və tarixi sərhədləri olan bir ərazi məfhumuda var. Yəni tarixi kökü və sosial bağlılığı olmayan torpaqlara iddia irəli sürülmür, mövcud coğrafi-siyasi reallığın tanınmasından danışılır. Tarixi xəritələrə və demoqrafik yaddaşa baxdıqda, müxtəlif dövrlərdə aparılmış köç siyasətlərindən öncə də sərhədlərin ümumi çərçivəsini izləmək mümkündür.

Xalqımızın ehtiyaclarını qarşılamaq üçün kifayət qədər resurslarımız var. Güney Azərbaycan qaz və qızıl kimi təbii sərvətlərə, buğda, tərəvəz və meyvə istehsalı sayəsində güclü əkinciliyə sahibdir. Araz çayı və Urmu gölü (yenidən canlana bilən) su mənbələri də bu iqtisadi imkanları tamamlayır. Bu resurslar üzərində səmərəli nəzarət qurmaqla insan kapitalını, vergi sistemini və ictimai xidmətləri daha effektiv şəkildə idarə etmək mümkündür. İnstitusional baxımdan, ixtisaslaşmış dövlət qurumlarının formalaşdırılması mümkündür. Qanunverici qurumlar, qərarların icrası, və məhkəmələr (qanunların şərhi və hüquqi nəzarət) kimi strukturlar 1945-ci il təcrübəsində qismən də olsa görünmüşdü. Bununla belə, ən mürəkkəb suallardan biri tanınma məsələsi ortaya gəlir. Güney Azərbaycan xalqımız və digər aktorlar tərəfindən nə dərəcədə tanına və dəstəklənə bilər? Suverenliyimizi bərqərar etmək və öz daxili və xarici işlərimiz üzərində ali hakimiyyəti həyata keçirmək, federal və ya müstəqil hökumət formatından asılı olmayaraq, xalqımızın öz torpağına nəzarət edən bir hökumət qurmaq üçün güclü bir istəyi var.

Xarici tanınma, diplomatik münasibətlər, ticarət, təhlükəsizlik və regional sabitlik üçün bəzi türk dövlətləri ilə mümkün siyasi və mədəni yaxınlıq var ama yalnız bununla kifayətlənmək olmaz. Qeyri-türk dövlətlərlə də əlaqələrin qurulması və legitimlik çərçivəsinin genişləndirilməsi vacibdir. Misal olaraq, müsəlman ölkələri ilə dini ortaq nöqtələrdən və zərurət yarandıqda “düşmənimin düşməni mənim dostumdur” məntiqi də işləyə bilər.

Nəticə etibarilə, Güney Azərbaycanın öz idarəetmə modelini qurmasının legitimliyi və qurumsal qabiliyyəti ilə bağlı əsas sual “mümkündürmü?” deyil. Burda əsas sual, cəmiyyət olaraq təşkilatlanma və torpaq üzərində effektiv nəzarəti bərqərar etmək üçün koordinasiyalı şəkildə hərəkət etmək mümkün olacaqmı? (son)

Bültən Güney Azərbaycandan Məsələlərə baxır

İranın Yoxsulluq İçindəki Ucuz Döyüşçü Bazarı

Fəramərz Əsğərzadə

Bu dəfə artıq söz soyuqluqdan getmir. Səslərdə qəzəb dalğalanır. Bəlkə də dünən fərqi yoxdur deyən gənc, bu gün yorğun amma qərarlı bir səslə artıq "yetər" deyir. Bu növ ton dəyişiklikləri İran cəmiyyətinin dərisinin altında baş verən daha dərin bir dəyişikliyin nişanəsidir. Bu, duyğusal bir təsvir deyil; onun arxasında rəqəmlər dayanır.

Ölkənin iqtisadi böyüməsi son illərdə durğunluq fazasına girib və 2026-cü il üçün böyümə oranının mənfi 0.4 olacağı təxmin edilir. 40 milyona yaxın insan yoxsulluq içindədir; yəni əhalinin hardasa yarısı dolanışıq təhlükəsizliyi problemi ilə üz-üzədir. Münaqişə analizi araşdırmaları adam başına düşən gəlirin azaldığı ölkələrdə daxili savaş ehtimalının böyük ölçüdə artdığını göstərir; hətta adam başına düşən gəlirin yarıbayarı azalması daxili savaş riskini iki qata çıxara bilər. Beləliklə, yoxsulluq təkcə sosial bir məsələ deyil, həm də bir təhlükəsizlik göstəricisidir.

Belə bir vəziyyətdə, xarici müdaxilə katalizatoru ilə birlikdə, məhsulu "gələcəksiz insan gücü" olan bir bazar formalaşır. Milyonlarla insan iqtisadi basqı altında yaşadıqda və dayanıqlı iş perspektivi məhdud olduqda, radikal qruplar və ya zorakılıq mərkəzli şəbəkələr üçün insan cəlb etmək asanlaşır. Məsələ sadəcə ideologiya deyil; məsələ xərc və fayda məsələsidir. Sabit gəliri olmayan və inflyasiya səbəbindən alım gücü hər il azalan gənc, kiçik maliyyə təkliflərinə qarşı belə həssas hala gəlir. Gündəlik həyatın sabitliyi və parlaq üfüqü yoxdursa, yüksək riskli bir quruluşa qoşulmaq artıq tamamilə məntiqsiz görünmür. Yoxsulluq element və qüvvə toplama xərclərini aşağı salır və nəticədə döyüşçü ucuzlaşır.

Bu basqı təkcə sivil cəmiyyətdə qalmır. İqtisadi böyümə mənfi olduqda və dövlət büdcəsi təzyiq altına düşdükdə, inzibati və təhlükəsizlik qurumları da qaynaq məhdudiyyəti ilə üzləşirlər. Bir hissəsi iqtisadi sabitlik üzərində qurulmuş bir strukturda uzunmüddətli durğunluq gizli çatlamalar yarada bilər. Aşağı təşkilati səviyyələrdəki tükənmiş ruh halı və narazılıq böhran anlarında özünü göstərir. Beləliklə, yoxsulluq sadəcə etirazçı yetişdirməklə qalmır, həm də güc strukturunun daxili birliyini zəiflədir.



Bu vəziyyət kimlik məsələsi və keçmişdəki basqıların tarixi yaddaşı ilə birləşəndə daha da qarışıq bir durum yaranır; Azərbaycan və Kürdüstanın kollektiv yaddaşında 1946-cı il hadisələri — Təbrizdə və digər şəhərlərdə milli hökumətin qanlı şəkildə aradan aparılması və çoxlu sivil insanın və siyasi fəalın öldürülməsi — hələ də açıq bir yara kimi qalmaqdadır. O dövr bir çoxları üçün təkcə siyasi məğlubiyyət deyil, mərkəzi dövlətin kimlik istəklərinə və özünüidarə tələbinə qarşı sərt davranışının simvolu sayılır. Bu tarixi yaddaş, bugünkü iqtisadi ayrı-seçkiliklərlə birlikdə narazılığa daha dərin bir qat əlavə edir.

Bu günün keçmişdən fərqi isə rəvayət vasitələrindədir. Sosial şəbəkələr yerli rəvayətlərin yenidən dilə gətirilməsinə və tarixi sənədlərin yayılmasına imkan yaradıb. Əgər ötən onilliklərdə yalnız rəsmi dövlət rəvayəti hakim idisə, indi vətəndaşlar öz baxış bucaqlarından danışa bilirlər və "mərkəzçi güclərin gerçək üzü" adlandırdıqları gerçəkliyə meydan oxuya bilirlər. Bu yeni məkan indiki yoxsulluqla tarixi basqı yaddaşı arasındakı bağı daha da gücləndirib. Alım gücünün aşağı düşməsi, mənfi 0.4 faiz böyümə və həddindən aşağı yoxsulluq yaşayan 40 milyonluq əhali keçmiş basqıların xatırlanması ilə birləşəndə narazılıq artıq təkcə iqtisadi mahiyyət daşımır; bu, illərdir basdırılmış bir millətin ləyaqət və kimliyinin tanınması məsələsinə çevrilir.

Belə bir mühitdə yoxsulluq sürətləndirici rol oynayır. Əgər adam başına düşən gəlir daha da azalarsa, münaqişə araşdırmalarında göstərilən modellərə görə dövlət qurumlarında qeyri-sabitlik ehtimalı artacaq. Həm iqtisadi basqı yaşayan, həm də tarixi basdırılma yaddaşını diri saxlayan bir cəmiyyət daha sərt reaksiya verə bilər. Bu reaksiya genişmiqyaslı etirazlardan tutmuş gənclərin bir hissəsinin radikallaşmasına qədər dəyişə bilər və bu radikallaşma münaqişə tarixi olan bölgələrdə siyasi gərginliyin artması və cəmiyyətin qütbləşməsi ilə daha da şiddətlənə bilər.

Məsələ sadəcə texniki islahatlarla həll olunmur. Qaynaqların daha ədalətli bölüşdürülməsi, iş yerlərinin yaradılması və iqtisadi göstəricilərin yaxşılaşdırılması vacibdir, amma kifayət deyil. (son)

"Bu günün keçmişdən fərqi isə rəvayət vasitələrindədir. Sosial şəbəkələr yerli rəvayətlərin yenidən dilə gətirilməsinə və tarixi sənədlərin yayılmasına imkan yaradıb. Əgər ötən onilliklərdə yalnız rəsmi dövlət rəvayəti hakim idisə, indi vətəndaşlar öz baxış bucaqlarından danışa bilirlər və "mərkəzçi güclərin gerçək üzü" adlandırdıqları gerçəkliyə meydan oxuya bilirlər.

Təzyiq, Kimlik və Asılılıq: Güney Azərbaycanlıların Siyasi Dilemması

Sara Tampu

Güney Azərbaycanlılar uzun müddətdir ayrı-seçkiliklə üzləşsələr də, son dövrlərdə onlar artan sözlü, fiziki və sistemli təzyiqlərlə qarşılaşırlar. Pəhləvi tərəfdarı təşkilatlar və media, eləcə də kürdlərin Güney Azərbaycanın qərb bölgələrinə köçü son gərginlikləri daha da artırmışdır.

Ərazi baxımından yerindən edilmə kimi mövcudluq təhlükələri ilə üzləşən qruplar sosial baxımdan daha sıx birləşərək və fərqliliyə daha az dözümlü olaraq qrup birliyini gücləndirirlər. Qrupun varlığına yönəlmiş ciddi təhlükələr adətən iki cür reaksiya yaradır:

1. Davamlı xarici təzyiq altında olan cəmiyyətlər üçün hakim güc strukturlarına yaxınlaşmaq bəzən təhlükəsizlik strategiyası kimi görünə bilər. Ayrı-seçkilik və qarşılaşdıqları problemlərin təzyiqini azaltmaq istəyən qrup bu yolu seçə bilər. Bunun bir yolu mövcud problemləri əsaslandırmaq və ya görməzdən gəlmək və elitaların (və ya əks-elitaların) baxışlarına uyğunlaşmaqdır. Bu baxış adətən kifayət qədər tərəfdar kütləsinə də sahib olur, çünki elitalar (və ya əks-elitalar) öz fikirlərinin çox yaxşı şəkildə təbliğ olunması üçün maliyyə imkanlarına malikdirlər. Bunu bəzi media qurumlarının Pəhləviləri və onların ətrafında baş verən hadisələri təqdim etmə tərzində müşahidə edirik. Bu qrup tam şəkildə Pəhləvi tərəfdarına çevrilə və ya İranı dəstəkləyən mövqeyə keçə bilər ki, bu da həmin şəxslərə psixoloji rahatlıq verir.
2. Qrup başqa cür də təsirlənə bilər: xarici hücumlar sakit və müdafiə xarakterli bir kimlik qoruma mexanizmi yarada bilər. Bu cür qruplarda birlik, eyni hücumlara məruz qalan başqalarını tapmaq və birlikdə hərəkət etmək üzərində formalaşır (məsələn, bir neçə nəfərin bir mövzu haqqında paylaşım etməsi belə bir hərəkət sayılır). Son gərginliklər fonunda azərbaycanlılara qarşı sözlü hücumlar, ərazi münaqişələri və fiziki qarşıdurmalar daha geniş yayılmışdır və media vasitəsilə daha görünən hala gəlmişdir. Təşkilatlanmış hərəkətlərə nümunə kimi stadionlarda səsləndirilən şüarlar (xüsusilə "Traktor" azarkeşlərinin fəaliyyəti), sosial mediada ənənəvi geyimlərin ictimai yerlərdə geyilməsi kimi tendensiyalar və kollektiv addımlar (məsələn, Almaniyada bir qadının təhqiredici şərhlərinin səlahiyyətli orqanlara bildirilməsi) göstərilə bilər. Bu kimi addımlar şüuraltı və güclü bir birlik yaradır və bu birlik daha çox fəaliyyətlə daha da möhkəmlənərək sarsılması çətin olan bir gücə çevrilir.

Güney Azərbaycanın müəyyən struktur üstünlükləri də vardır: bu bölgə tarixdə fəaliyyət göstərmiş xalq hökumətinin nümunəsinə sahib olan yeganə azlıq bölgəsidir; coğrafi baxımdan eyni etnik mənsubiyyətə malik dövlətlərlə əhatə olunmuşdur ki, bu da regional güc balansına təsir edir; həmçinin əhəmiyyətli dərəcədə resurs baxımından özünütəmin imkanlarına malikdir.

Bununla belə, digər siyasi hərəkətlər bu birliyin potensialını kölgədə qoya bilər. Pəhləvi yönlü narrativlər tez-tez bütün problemləri yalnız SEPAH-la əlaqələndirir və onların hakimiyyətinin bu problemləri təkbaşına həll edəcəyi təəssüratını yaradır. Mərkəzçi hərəkatlar isə İran daxilində tam milli birlik olmadan dəyişimin mümkün olmadığını iddia edirlər (bu mövqe xüsusilə Pəhləvi tərəfdarları tərəfindən tez-tez səsləndirilir). Digər tərəfdən, Türkiyədə və ya Azərbaycan Respublikasında olan bəzi siyasi fiqurların ən kiçik addımlarını belə Güney Azərbaycanlılar üçün xilasedici kimi təqdim etmək və insanları onları dəstəkləməyə çağırmaq kimi yanaşmalar da mövcuddur.

Bu yanaşmaların ümumi problemi (həqiqi suverenliyə aparmamasından əlavə) ondan ibarətdir ki, onlar asılılıq düşüncəsini təşviq edir — yəni problemlərin həllinin başqa qruplarla əməkdaşlıqdan və ya onların "xilasından" gələcəyi fikrini gücləndirir. Bu isə regional potensialımız barədə şüurumuzu zəiflədir və özünüidarəetmə imkanlarına olan inamı, hətta onun haqqında düşünməyi belə azaldır. Nəticədə bu birlik emosional səviyyədə qalır və digər hərəkatların bir hissəsi kimi təqdim edilərək onların fəaliyyətlərinə xidmət edə bilir, halbuki strateji və planlı bir hərəkata çevrilməlidir. Bu isə milli hərəkatın gücünü və nüfuzunu zəiflədir, çünki onun daxilində baş verən bütün fəaliyyətlər başqa hərəkatların adı ilə yayımlanır.

Mənim təklifim budur ki, hərəkatın suverenliyin və özünütəminin nə demək olduğunu daha yaxşı görməsi və dərk etməsi üçün dünya tarixindən nümunələr göstərilsin, lakin ən vacibi öz milli hərəkatımızın nailiyyətləri nümayiş etdirilsin: öz hökumətimizin dövrünün problemlərini necə həll etdiyini və bunu yenidən necə edə biləcəyini göstərmək, güclü media qurmaq və bu birliyin daxilində təşkilati struktur yaratmaq. (son)

> ***Güney Azərbaycanın siyasi məhbuslarını unutmayaq !!***
>
> ***Siyasi məhbus o kəsdir ki, öz xalqının hüquq və azadlıqları uğrunda mübarizə aparır və yalnız buna görə həbs edilir.***
> *Leonard Peltier*

Güney Azərbaycanlı və Türk aydınının gücü məhz hegemon söyləmlərə qarşı göstərilən tənqidi müqavimətdədir.

İranda Xəyal Gücü Böhranı: Qapsayıcı Demokrasi Mübarizəsində Güney Azərbaycanlı Aydınların Rolu

Vahid Qarabağlı

İranda bu gün cəmiyyət ağır iqtisadi çətinliklər, siyasi basqılar və şiddət mühiti ilə üz-üzədir. Vətəndaşlar təvərrüm, təhrimlər və repressiv idarəetmə sonucu siyasi-ictimai azadlıqların sınırlandığı ortamda mübarizə aparır və böhrandan çıxış yolları axtarırlar. İnsanlar sanksiyaların aradan qalxmasını, iqtisadi sabitliyi və uzun illərdir arzuladıqları normal həyata qayıdışı istəyirlər. Lakin mövcud rejim öz ideoloji və geosiyasi öncəliklərini qoruduqca yapısal dəyişim imkanları barədə dərin bir ümidsizlik hökm sürür.

Lakin bu dəyişiklik arzusu basqıcı və fürsətçi qüvvələr tərəfindən yönləndirilməkdə, manipulə olunmaqda və onların siyasi layihələrinin həyata keçirilməsi üçün səfərbər edilməkdədir. Xalqın çıxılmaz vəziyyəti nostalji əsaslı populizm üçün siyasi alətə çevrilməkdədir. Bu kontekstdə İranın keçmiş şahının oğlu Rza Pəhləvi siyasi boşluqdan yararlanmağa çalışmaqda və xarici güclərin, eləcə də farsdilli media qurumlarının dəstəyi ilə özünü mövcud böhrandan çıxış üçün alternativsiz lider kimi təqdim etməkdədir. Buna görə də İran bu gün yalnız iqtisadi çətinliklər və siyasi basqılarla deyil, həm də dərin bir xəyal etmə və siyasi perspektiv böhranı ilə üz-üzə qalmaqdadır.

Şahın oğlu siyasi legitimliyini 1979-cu ildə xalq üsyanı ilə devrilmiş şah irsinə istinad edərək qurur. Mübarizə söyləmi demokratik və qeyri-demokratik prinsiplər üzərindən deyil, rejim dəyişimindən sonra hakimiyyətə gələn siyasi İslam sistemi ilə pəhləvi–şahçılıq ikiliyi çərçivəsində formalaşdırılır. Başqa sözlə, mübarizə hansı siyasi və demokratik şərtlər altında idarəetmənin həyata keçirilməli olduğu sualından daha çox, kimin hakimiyyətə gəlməli və hakimiyyəti əlində saxlamalı olduğu məsələsinə endirilir. Bu çərçivələmə vasitəsilə o, mövcud Ayətullah Xamenei fiquru qarşısında özünü şahzadə obrazında “xalqın atası” və xilaskar lider kimi təqdim edir, tənqidçiləri isə hakimiyyətlə eyniləşdirərək marjinallaşdırır. (ardı 8-cı səhifədə)

> **Güney Azərbaycan türkləri hansı gələcək üçün, hansı məqsədlər uğrunda, hansı üsullarla və hansı mübarizə forması ilə öz güclərini yenidən sınayacaqlar?**

Güney Azərbaycan Türkləri Tarix Boyu Hansı Güclə və Hansı Məqsədlər Uğrunda Mübarizə Aparıblar?

Samad Purmusavi

Güney Azərbaycanın Mübarizə Gücü

Güney Azərbaycan türkləri tarix boyu müxtəlif dövlətlərin qurulmasında və qorunmasında fəal iştirak etmişlər. Bu baxımdan demək olar ki, onlar məzmunundan asılı olmayaraq siyasi hakimiyyət qurmaq və onu qorumaq qabiliyyətinə malik bir xalqdırlar. Tarix göstərir ki, İranda bir çox siyasi hakimiyyət türklərin hərbi gücünə əsaslanaraq mövcud olmuşdur.

Bununla yanaşı, daxili çəkişmələr və regional güc balansı səbəbindən onlar bəzən siyasi hakimiyyətdəki nüfuzlarını itirmişlər. Lakin idarəçilikdə zəiflədikləri dövrlərdə belə, ordu və döyüş meydanlarında güclərini heç vaxt itirməmiş, əksinə, həmişə ön sıralarda yer almışlar.

Tarixdə Nə Uğrunda Mübarizə Aparıblar?

Tarixi baxımdan türklər daha geniş ərazilərə sahib olmaq, vergi toplamaq və siyasi hakimiyyət qurmaq məqsədilə mübarizə aparmışlar. Bu səbəbdən torpağa və əraziyə bağlılıq onların düşüncəsində mühüm yer tutmuşdur. Eyni zamanda, onlar inandıqları din və siyasi hakimiyyətlər uğrunda da mübarizə aparmışlar.

Son Yüz Ildəki Mübarizələr

Son yüz ildə, Məşrutə hərəkatından başlayaraq, güney Azərbaycan türkləri vətən anlayışı, ictimai quruluş, qanunun aliliyi, istibdada qarşı mübarizə və xarici müdaxilələrin qarşısının alınması kimi məqsədlər uğrunda fəaliyyət göstərmişlər. İranda modern millət və dövlət anlayışının formalaşmasından sonra onlar tədricən siyasi güclərini itirmiş, mübarizələri daha çox zülmə (Ardı 8-ci səhifədə)



Böhran şəraitində keçmiş nostalji şəkildə ideallaşdırılır, anti-demokratik eyləmlər və söyləmlər önəmsizləşdirilir, şiddətə və dışlayıcılığa əsaslanan siyasi kimlik inşa edilərək alternativsiz bir layihə kimi təqdim olunur. Bu bağlamda Güney Azərbaycanın mövcud siyasi axına qarşı; qeyri-demokratik ikiliklərin ötesində, alternativlər inşa etmə cəhdi önəmli bir müqavimət və çıxış potensialı daşıyır. Öz demokratik və progressiv söyləmi ilə alternativ bir güc olaraq ortaya çıxması strateji bir demokratik imkan kimi dəyərləndirilməlidir. Cəfər Pişəvərinin Rza şah istibdadı dövründə vurğuladığı kimi, Azərbaycan xalqının öz müqəddəratını təyinetmə haqqını əldə etməsi uğrundakı demokratik mübarizəsi İranda basqı altında olan toplumlar üçün ilham mənbəyi olmuşdur.

Bu gün İranın həssas keçid dövründə Azərbaycan aydınlarının üzərinə böyük məsuliyyət düşür. Tək-səsli və dar baxışlı şəkildə dayadılan şahzadəlik və fars-iran millətçi söyləmi, eləcə də seksist və inkarçı qüvvələr qarşısında öz alternativ söyləmləri və siyasi mövqeləri ilə ortada dayanmaq zəruridir. Əgər biz bu mövqeləri açıq şəkildə ifadə etməsək, başqaları bizi öz maraqları və söyləmləri çərçivəsində, və bizim zərərimizə, təmsil edəcək və tanıdacaq.

Güney Azərbaycanlı və Türk aydınının gücü məhz hegemon söyləmlərə qarşı göstərilən tənqidi müqavimətdədir. Bu müqavimət yalnız bölgəsəl ayrı-seçkiliyə, irqçi dil siyasətinə və etnik iyerarxiyalara qarşı deyil, həm də qadınların, işçilərin və ətraf mühit məsələlərinin bir-biri ilə iç-içə keçmiş problemlərini həll etmək üçün hər hansı ciddi plan təqdim etməyən, əksinə bu qeyri-bərabər münasibətləri ideoloji və diskursiv olaraq gücləndirən və yenidən istehsal edən Pəhləvi və digər mərkəzçi qüvvələrə qarşı yönəlməlidir.

Basqı və susdurmalara qarşı alternativ xəyallar və ümidləri paylaşmaq bir direniş formasıdır. Bu həssas böhran dövründə propagandaya qarşı durmaq və demokratik mübarizə mühitinin passivləşdirilməsinə yol verməmək tarixi zərurətdir. Məqsəd bir basqıcı rejimin digəri ilə əvəzlənməsi deyil, yapı baxımdan demokratik və qapsayıcı dəyişimi əsas hədəf kimi müəyyənləşdirməkdir. (son)



qarşı çıxmaq, sosial və siyasi ədalət, bərabər hüquqlar, azadlıq və dini-mədəni dəyərlərin qorunması istiqamətində formalaşmışdır.

Müxtəlif dövrlərdə özünüidarə və siyasi hakimiyyət əldə etmək cəhdləri də olmuşdur. Bu cəhdlər Məşrutə dövründə əyalət və vilayət əncümənləri ideyasında, Xiyabani hərəkatında siyasi muxtariyyət tələblərində, daha sonra isə milli hökumət dövründə mədəni/kültürəl və siyasi muxtariyyət formasında özünü göstərmişdir.

Bu cəhdlərin mərkəzi hakimiyyət tərəfindən yatırılmasından sonra mübarizələr daha çox ədalət anlayışı ətrafında cəmləşmişdir. Müxtəlif formalarda ədalətsizlik yaşayan güney Azərbaycan cəmiyyəti Sovet İttifaqı və Quzey Azərbaycandakı milli azadlıq prosesləri ilə də maraqlanmışdır. Onlar İranda sol hərəkatların formalaşmasında da mühüm rol oynamışlar. İnqilab dövründə Pəhləvi rejiminin yaratdığı ədalətsizliklərə qarşı mübarizədə fəal iştirak etmiş, onun süqutu üçün böyük bədəl ödəmişlər.

İnqilabdan sonra da yeni ədalətsizliklərlə üzləşmələrinə baxmayaraq, İran–İraq müharibəsində ölkənin müdafiəsində mühüm rol oynamışlar. Buna baxmayaraq, iqtisadi, mədəni və sosial ədalətsizliklərin davam etməsi səbəbilə bu mübarizələr günümüzdə daha geniş milli hərəkat formasını almışdır.

Mübarizə və Döyüş Xüsusiyyətləri

Türklər mübarizələrini əsasən öz güclərinə arxalanaraq aparmışlar. İnandıqları mübarizələrdə iştirak etmiş, lakin qəbul etmədikləri münaqişələrdən uzaq durmuşlar.

Bu xüsusiyyət onları məqsədlərinə çatmaq üçün hər vasitədən istifadə edən digər siyasi qüvvələrdən fərqləndirir.

Etnik Baxış

XX əsrin əvvəllərindən etibarən Güney Azərbaycan türklərində etnik kimlik digər bəzi xalqlarla müqayisədə daha zəif rol oynamışdır. Onların mübarizələri daha çox etnik mənsubiyyətə deyil, ədalət və həqiqət anlayışına əsaslanmışdır. Bu səbəbdən onlar Məşrutə inqilabı dövründə türk mənşəli Qacar hakimiyyətinin süqutunda da rol oynamışlar. Qəbul etmədikləri siyasi sistemlərə, dini strukturlara və hakimiyyət formalarına qarşı mübarizə aparmaqdan çəkinməmişlər.

Nəticə

Güney Azərbaycanlıların tarix boyu ortaq xüsusiyyəti onların mübarizəçi xarakterə malik olmalarıdır. Bu gün də son yüz ildə həll olunmamış mədəni, siyasi və sosial problemlər uğrunda mübarizə aparmaqda davam edirlər.

Xarici təhdidlər qarşısında ölkəni qorumaq və cəmiyyəti birləşdirmək qabiliyyətinə malik olmuşlar. Buna baxmayaraq günümüzdə əsas sual belədir: Güney Azərbaycan türkləri hansı gələcək üçün, hansı məqsədlər uğrunda, hansı üsullarla və hansı mübarizə forması ilə öz güclərini yenidən sınayacaqlar? (son)